## 20 Yanvar hadisələrindən 31 il keçir

# Hər gecənin işıqlı, ümidli bir səhəri olur...

***20 Yanvar hadisələri xalqımızın acı yaddaşıdır. Hər il bu tarix yaxınlaşdıqca, insanlarda bir acı təəssürat baş qaldırır. Elə həmin qanlı günlərin şahidi Fəxrəddin Rəhimovun da tük ürpədən fikirləri bizi yenidən o illərə qaytardı. Fəxrəddin müəllimin 20 Yanvardan bəhs edən məqaləsini təqdim edirik.***



Mən o vaxtlar Nobel prospektindəki Nizami parkına çatmamış təpənin üstündəki evlərdən birində yaşayırdım. 19.01.1990-cı ildə 2-ci növbəni, yəni saat 23:00-da işi qurtarıb evə gəldim. Daxilən çox narahat idim. Heç yemək yeməyə də istəyim olmadı. Çox yorulmuşdum. Yatmaq istəyirdim. Ancaq yatmağa cəhd etsəm də gözlərimə yuxu getmədi. Səhər saat 5:00 olardı. Narahat olduğum üçün işə getməyi qərara aldım. Vaxtından tez öz maşınımla yola çıxanda gördüm ki, evimizin yanındakı avtobus dayanacağında qonşularımdan bir nəfər dayanıb maşın gözləyir. Həmin qonşumu da maşınıma götürdüm. O, mənə bildirdi ki, Tbilisi prospektində yerləşən yanacaq daşıyan avtomaşınların avtobazasında sürücü işləyir. Gecədən rus qoşunlarının şəhərə girməməsi üçün XI Qızıl Ordu dairəsini (indiki 20 Yanvar dairəsi) keçəndən sonra maşınlarımızla yolu tamam bağlamışıq. İndi çox narahat olduğum üçün gedirəm maşınım olan yerə. Ruslar heç cürə şəhərə girə bilməzlər deyirdi. Biz indiki Heydər Əliyev prospektinin Xətai prospekti ilə kəsişdiyi yarımdairəyə çatanda gördük ki, yolun tən ortasında bir tank dayanıb və tankın yanında da rus əsgərləri. Tankı görən sərnişinlər dizlərinə vuraraq - vay, ruslar şəhərə girib, - deyərək qışqırdı. Biz tankın yanına çatanda rus əsgərləri mənə "saxla!" işarəsi verdi.

Mən maşını saxlayıb düşdüm. Əsgər məndən üstümdə silahın olub-olmamasını soruşdu. Ona silahımın olmadığını bildirdim. O biri əsgərlər mənim sərnişinimi düşürüb əllərini divara söykəyərək təslim vəziyyətində onun üst-başını yoxladıqdan sonra buraxdılar. Biz yolumuza davam etdik. Xətai prospektində indiki Nərimanov rayon İcra Hakimiyyəti yanında bayaqkı yoxlamalar yenə də təkrar olduqdan sonra bizi buraxdılar. Kazımzadə küçəsindəki zooparkı keçəndən sonra Bakıxanov küçəsinə çatmamış gördüm ki, 2 ədəd hərbi yük-sərnişin maşını yolu eni boyunca tamam bağlayıb. Mən maşınımdan düşəndə gördüm ki, maşının sürücüsü və yanında olan zabit oturaqlı vəziyyətdə yatıb. Mən əsgər sürücüyə yolu açmalarını dedim. O, yanındakı zabiti göstərərək ona müraciət etməyi bildirdi. Həmin üstü cadırlı maşının arxasından keçib zabitin yanına gedəndə gördüm ki, hər iki maşının kuzasında idmançı geyimində saqqallı, uca boylu hərbçilər bir-birinə sıxlaşaraq yatırlar. Mən maşındakı hərbi formada olan baş leytenantdan yolu açmağı xahiş etdim. Həmin zabit mənə söyüşlə bərabər bir kəlmə söz dedi: "yesli şaq peryod, budum strelyat". Onun bu sözləri mənə səbrli və təmkinli olmağı təlqin etdi, maşınıma yaxınlaşanda gördüm ki, məndən sonra 15-20 avtomaşın da yolun açılmasını gözləyir. Həmin sürücüləri çağırıb başa saldım ki, onlar həqiqətən də bizi güllələyə bilərlər. Mən burdan başqa yol tanıyıram. Sürün, gəlin dalımca. Mən onların hamısını təhlükəsiz yolla apardım. Beləliklə, İnqilab küçəsi ilə (indiki akademik Həsən Əliyev) üzü yuxarı getdim. Tbilisi prospektinə çatmamış gördüm ki, əsgərlər yolu tamam bağlayıb. Maşından düşəndə sağıma-soluma, hər tərəfimə Salyanski kazarma tərəfdən yanan. odsaçan güllələr yağış kimi səpələnirdi. Sərnişinimə dedim ki, çox təhlükəlidi. Sənə də məsləhət görürəm ki, geriyə qayıdasan.

Mən geriyə, iş yerimə - Nəsimi rayon Dövlət Avtomobil Müfəttişliyinə çatanda saat 05:55 dəqiqə idi. Hər yerdə işıqları söndürmüşdülər. Bölmədə 2 nəfər növbətçi var idi. Onlar şam işığında oturmuşdular. İşıq olmadığından radio-stansiyalar işləmirdi, ancaq telefonla əlaqə saxlayırdılar. Növbətçi Əbülfət Məmmədov və Aqil Mehrəliyev mənə bildirdilər ki, gecə saat 00:00-dan rus əsgərləri dinc,

əliyalın xalqı güllə-boran ediblər. 6 nəfər Bakı şəhər DAM - gecə əməliyyat qrupu əməkdaşlarını tərki-silah edib, naməlum istiqamətə aparıblar. Növbətçilər mənə bildirdilər ki, Semaşko və onun yanındakı təcili tibbi yardım xəstəxanasında yaralı və ölülərdən yer yoxdu, əməkdaşlarımız bütün gecəni evlərdən şam və neft lampaları toplayaraq həkimlərin əməliyyat etmələri üçün xəstəxanaya veriblər. Xəstəxanada tibbi personal çatışmadığı üçün Tibb institutunun yaxınında yerləşən yataqxanasından bütün tələbələri xəstəxanaya aparmaq üçün gediblər. Tibb institutunun yataqxanasına çatanda tələbələrin çox hissəsi xəstəxanada idilər. Mən də bir neçə tələbə ilə gizli yolla xəstəxanaya gəlib, tələbələri orada yaradılmış müvəqqəti qərargaha təhvil verdim.

Artıq hava işıqlaşmışdı. Göydə çox yüksəkdən uçan bir vertolyotdan səsgücləndirici vasitəsi ilə qarma-qarışıq səslər gəlirdi və həmin vertalyotdan yerə çoxlu sayda kağızlar atılırdı. Kağızın birində yazılmışdı ki, Bakıda fövqəladə vəziyyət elan olunub. Çox qəribə idi, saat 00:01-dən günahsız, əliyalın xalqı qırmağa başlayıblar, ancaq indi saat 8-də fövqəladə vəziyyət elan olduğu haqda xəbərdarlıq edilirdi.

***

Səhər saat 10:00 olardı. Şəhərdə ara-sıra maşınlar şütüyürdü. İnsanlar kimi havanın da qaş-qabağı açılmırdı. Yolda da adamlar az idi. Sanki hamı anlaşılmaz bir sirrin tilsiminə düşmüşdü. Mən özüm də...

Lenin prospekti ilə (indiki Azadlıq prospekti) xidməti avtomaşında gedərkən yolda dayanmış bir qadın maşını saxlamağımı xahiş etdi. Həmin xanımı tanıdım. Yazıçı Namiq Abdullayevin həyat yoldaşı Firəngiz xanım idi. O, məndən xahiş ki, onu yaxınlıqda olan təcili tibbi yardım xəstəxanasına aparım. Qanunla mülki vətəndaşı aparmağa ixtiyarın olmasa da bugünkü dar gündə xalqla polisin birliyi hər şeydən üstün olduğu üçün Firəngiz xanımı maşına götürdüm. Yolda soruşdum ki, xəstəxanada kimi axtarırsan? O, dedi ki, heç kimi. Mən yaralı xəstələrə qulluq və ya onlar üçün hər nə bacarsam edəcəm. Döşəməni də silib süpürərəm. Bax, evimdən başmaq, sabunlar, hər şey götürmüşəm. Hətta bura gələndə aptekdən çoxlu sarğı, yod, bint və başqa zəruri dərmanlar almışam. Baxın, çantamda iş paltarı da götürmüşəm. Təki az da olsa köməyim dəysin...

Firəngiz xanım hansısa nazirlikdə çox məsul bir vəzifədə işləyirdi. Onun bu qədər vətənpərvərliyi, sadəliyi, canıyananlığı, qeyrəti məni heyrətə salmışdı.

Biz təcili-tibbi yardım xəstəxanasının həyətinə çatanda orada çoxlu sayda adamların olduğunu gördük. Onların çoxu yaralı, itkin düşmüş və ölmüş adamlarını axtarırdılar. Bəziləri isə hər növ kömək göstərə biləcəklərini qərargaha təklif edirdilər.

Yanvar ayının 21-i idi. Gecə növbədə olduğumdan gündüz bir az dincəlməli idim. Bütün gecə və gündüz yatmadığıma baxmayaraq gözümə yuxu gəlmirdi. Bayıra çıxdım. Evim olan təpənin üstündən dəniz aydın görünürdü. Birdən sahilə yan almış bütün gəmilər uzun çəkən fit səsləri verməyə başladılar. Hərəkətdə olan maşınlar da dayanıb səs siqnalı verirdilər...

Əhmədli tərəfdən Fəhlə prospekti ilə insan axını gəlməyə başladı. Bu izdihamın içində çiyinlərdə gələn şəhidlərimizi gördüm.

İndiki "Asan" xidmətlə üz-üzə Xətai rayon İcra Hakimiyyəti yerləşirdi. O tərəfə baxanda gördüm ki, İcra Hakimiyyətinin binası yanır. Şəhidləri aparan izdiham bərabərimizə çatanda gördüm ki, insan axını qurtardıqdan sonra adamlardan 10-15 metr aralıda izdihamın arxasınca bir neçə yanğınsöndürən maşın çox asta sürətlə gəlir. Mən sona kimi bu mənzərəni müşahidə etdim. Yalnız şəhid cənazələri yanğın yerindən uzaqlaşandan sonra həmin yanğınsöndürən maşınlar, uzun tükürpədici fit verməyə başladılar. Gəmilərin, yanğınsöndürən və polis maşınlarından verilən bu həyacanlı fit səsləri adi səsdən çox hönkürtülü, qışqırıb ağlayan, hayar salan bir xalqın oyanış səsi idi.

***

20.01.1990-cı il səhər saatlarında o vaxtkı L.Şmidt - indiki R.Behbudov küçəsi ilə xidməti avtomaşınla Bakıxanov küçəsi tərəfə hərəkət edirdim. Xarici Dillər İnstitutunu keçəndən sonra yolun sağ tərəfində olan dəmir elektrik dirəklərinin hamısının gecədən zirehli texnika ilə vurulub yararsız hala salındığını gördüm. Bir az qabaqda Bakıxanov küçəsinə çatanda (indiki Türkiyə səfirliyi hasarının yanı) yolun sağında daşdan yonulmuş uşaq heykəli var idi. Həmin heykəli rus əsgərləri güllə ilə deşik-deşik etmişdilər. Mən Bakıxanov küçəsinə - sağa dönəndə bir rus piyadaların döyüş maşınını gördüm. Həmin zirehli avtomaşın bizim Dövlət Avtomobil Müfəttişliyinin xidməti avtomaşınının rəngində boyanmış və üstünə QAİ sözü yazılmışdı. Sonradan həmin zirehli maşını idarə edən rus əsgərlərindən öyrəndim ki, onlara göstəriş verilib ki, hansı avtomaşın sürücüsü əmrə tabe olmasa həmin bu zirehli avtomaşınla üstündən keçib, içindəkilərin hamısını məhv edin. Sonradan eşitdim ki, Sumqayıt yolunda bizim bir professorumuzun və başqa bir şəxsin üstündən avtomaşın keçib, maşının içindəkilərin hamısını məhv etmişdilər. Bu gördüklərim, eşitdiklərim, sonradan eşitdiklərimin yanında az fərqlənmirdi. Bayaq sizlərə dedim axı, rus əsgərləri 00:01-də əməliyyata başlayarkən bizim 6 nəfər müfəttişimizi həbs edərək gizli yerdə onlara işgəncə verib, ac-susuz saxlayırdılar. Bizim Bakı şəhər DAM-də bir nəfər Əsqanıstanda döyüşmüş polis polkovniki Haqverdiyev var idi (adını unutmuşam). O, rusların bir polkovniki ilə Əfqanıstanda bir yerdə döyüşdüyü üçün onun xahişi ilə həbs edilən 6 əməkdaşı azad etdilər.

***

Dəqiq tarix yadımda deyil. Səhər təlimatı vaxtı məni Azərbaycan Dəmir Yolu Vağzalının yuxarı meydanında (o vaxtkı Kamo və Solnçev küçələri) indiki Süleyman Rəhimov və Mirəli Qaşqay küçələrinin kəsişməsindən bir az aşağıda xidmət aparacağımı bildirdilər. Görəcəyim iş bu olmalı idi ki, yuxarı meydana heç bir avtomaşın buraxmayım. Həmin vaxtlarda erməni milləti kütləvi surətdə qatarla başqa şəhərlərə köç edirdilər. Mən onların maşınlarını vağzalın yuxarı meydanına buraxmırdım. Onlar çantalarını əllərində və əl arabalarında qatara kimi aparmağa məcbur olurdular. Onların bu gedişləri uzaqdan baxanda qarışqa sürüsünü xatırladırdı. Təxminən 2-3 saat sonra meydana bir PDM zirehli maşını daxil oldu. Həmin avtomaşından yekəpər, qırmızı sifətli bir rus polkovniki və bir neçə rus əsgəri düşdü. Həmin polkovnik məni yanına çağırıb soruşdu:

- Sən burada nə işlə məşğulsan?

Mən ona cavab verdim:

- Bu gün səhər təlimatında mənim bu postda xidmət aparacağımı deyiblər və bu meydana heç bir avtomaşın buraxmamaq tapşırığı verilib.

Bu halda ağzından kəskin spirt iyi gələn bu polkovnik rus dilində mənə kobud söyüş söyərək, əsgərlərinə məni tutmağı əmr etdi. 6 nəfər silahlı rus əsgərin müşayiəti ilə mən həmin PDM-ə mindim.

Maşında əsgərlər mənim xidməti tabel silahımı - tapançamı aldılar.

Məni o vaxtkı Nəsimi rayon Partiya Komitəsinin inzibati binasına gətirdilər (indiki Nəsimi rayon Polis İdarəsi). Həmin polkovniklə 4-cü mərtəbəyə qalxdıq. Burada gördüklərimi sözlə ifadə edə bilmirəm. Oradakı otaqların qapılarının hamısı təxminən 30 metrədək uzun olan dəhlizə açılırdı. Dəhliz boyunca 70-80 nəfər azərbaycanlı oğlanların hamısı əlləri və ayaqları bir-birindən aralı vəziyyətdə üzü divara tərəf dayanmışdı. Onlara burada işgəncə verirdilər. Çoxları ağır bədən xəsarəti almışdı. Dözümsüzlük göstərib yıxılanlara, orada arıq rus kapitanı tibbi yardım göstərdikdən sonra həmin vəziyyətdə durmaları əmr edilirdi. Sonradan öyrəndim ki, o, rayonun komendantı Lebeddir. Həmin vaxt Lebed - yəni əfsanəvi gözəlliyə xas olan qu quşu, çox yırtıcı vəhşi heyvana daha çox oxşayırdı.

Lebed 5 dəqiqədən sonra yanında 17-18 yaşlarında bir azərbaycanlı oğlanla içəri girdi. Mənə iş yerimə zəng edib onları xəbərdar etməyi dedi və sonra dedi ki, bir kəlmə Azərbaycan dilində, danışsan səni də bunların gününə salaram. Mən komandirim mayor Nəcəfə zəng edib vəziyyəti ona dedim. Sonra Lebed həmin gətirdiyi oğlanı mənə göstərib dedi ki, sən bundan izahat al. Azərbaycan dilindən rus dilinə tərcümə etməklə. Qoy izahatında yazsın ki, mən gecə erməninin evinə dinamit qoyub partlatmaq istəyəndə rus əsgərləri məni tutub bura gətirdilər. Bu sözləri Lebed mənə deyib otaqdan çıxdı. Mən həmin azərbaycanlı oğlana Lebedin dediyini tərcümə edib, deyəndə, oğlan mənə dedi ki, əmi, o, yalan danışır, mən axşam növbəsi institutda oxuyuram. Dərsdən çıxıb evə gələndə, məni rus əsgərləri tutub bura gətirdilər. Mən həmin oğlanı başa saldım ki, ola bilsin məni az vaxta gəlib buradan aparacaqlar. Kimə izahat versən onların dediyi və istəyi kimi qətiyyən izahat vermə. Buna görə səni haqsız yerə həbs edə bilərlər. Mən sözümü təzəcə qurtarmışdım ki, dəhlizdə Lebedin səsi gəldi. Məni yanına çağırdı. Mən gördüm ki, komandirim mayor Nəcəf gəlir. Lebed mənim komandirimə qışqırıb söyüş söyərək, nizami sıra yerişi ilə gəlməyini əmr etdi. Gördüm ki, komandirin üzünün ifadəsi Lebedə qarşı dəyişdi. Mən Azərbaycanca ona dedim, qətiyyən mübahisə etmə. Onlar burada hər şey edə bilərlər. Beləliklə, mənim silahımı özümə qaytaranda komandirimlə xidmət yerinə gəldim. Orada mənə tanıdığım adamlar dedilər ki, sənin burada tutulub aparılmağın ermənilərin sifarişi ilə olub. Ermənilər hər axşam rus zabitlərinə yemək-içmək və üstəlik də öz qız və arvadlarını kef çəkmək üçün onların yanına aparırdılar. Sən erməniləri maşınla birlikdə meydana buraxmadığın üçün onlar da Lebedə sənin tutulmağını sifariş etmişdilər.

***

1990-cı il yanvar ayının son günləri idi. Dünən günortadan yağmış qar yerdə bərkiyərək yolu sürüşkən etmişdi. Mən şöbə rəisi, polis mayoru Ramazan Mütəllimovla Azadlıq prospekti (o vaxtkı Lenin prospekti) ilə ala-qaranlıqda üzü şəhərə tərəf gəlirdik. Qarşıdan rus əsgərlərinin 11 nəfərlik dəstəsi üzü yuxarı bizə tərəf gəlirdi. Bizə çatmalarına az qalmış, yanımızdan keçən 21-22 yaşlarında bir azərbaycanlı oğlan əsgərlərə tərəf baxıb, ucadan dedi:

- Rədd olub gedin mənim vətənimdən!

Bunu eşidən rus əsgərləri avtomatı bizə tərəf tuşlayaraq sözün mənasını başa düşməsə də həmin oğlanı mühasirəyə alıb onu döyməyə başladılar. Bu vaxt Ramazan həmin dəstənin komandirinə yaxınlaşıb dedi ki, onu döyməyin, o, deyirdi ki, yer çox sürüşkəndi, ehtiyatlı olun, yıxıla bilərsiniz. Buna görə adamı döyməzlər ki.

Ramazan ali təhsilini Rusiyada almışdı. Rus dilində çox təmiz danışır və onların damarlarının zəif yerindən tutmağı bacarırdı. Rusiyada bir müddət müstəntiq işləmişdi. Ramazanın tərcüməsindən sonra komandirləri əsgərlərinə onu buraxmağı əmr etdi.

Biz C.Cabbarlı abidəsinin yanına çatıb bir az nəfəsimizə rahatlıq vermək üçün dayandıq. Səhər açılmağa başlayırdı. Şimal tərəfdə göyün üzündə qara buludlar get-gedə çoxalırdı. Sanki bu qara buludlar səhərin açılmasını istəmirdilər. Ramazan göydəki qara buludları bir müddət seyr edəndən sonra başını aşağı salıb fikrə getmişdi. Mən lap uzaqlarda - şərq tərəfdə günəşin qırmızı şəfəqlərini görüb - Ramazana dedim:

- Bax, görürsənmi, o qızıl şəfəqlər qara buludların üstünü necə işıqlandırır. Bir müddət keçəcək, bu qara buludlardan əsər-əlamət qalmayacaq. Vətənimizin hər yeri günəşin isti və işığına qərq olacaq. Axı, hər gecənin işıqlı, ümidli bir səhəri və tər-təmiz buludsuz göy səması olur.



Fəxrəddin Rəhimov